# İstedad rəsmlərdə...



*Bu günlərdə C.Naxçıvanski adına Hərbi Liseydə kursantların bədii özfəaliyyət dərnəyinin rəsm sərgisi keçirildi. Bu sərgidə rəsm əsərləri nümayiş etdirildi.*

Kursantlar həm zirehli texnikaların, həm də müxtəlif silahların rəsmlərini çəkmişdilər. Onlar həmçinin xalqımızın qan yaddaşı olan Xocalı və 20 Yanvar faciələrini də fırçanın dili ilə tamaşaçılara çatdırmağa çalışmışdılar.

Bir azdan Hərbi liseyin rəisi polkovnik Rüfət Əmirov da kursantların bədii özfəaliyyət dərnəyinin rəsm sərgisinə baxmağa gəldi. Sərgidə on beşdən çox rəsm əsəri nümayiş olunurdu. Lisey rəisi bir-bir rəsm əsərləri ilə tanış oldu. Kursantlar çəkdikləri rəsm əsərləri haqqında geniş məlumat verdilər. Danışdıqca gələcək zabitlərin gözləri gülürdü. Dərnək üzvləri ünvanlanan sualları ətraflı cavablandırmağa çalışırdılar. 3-cü kursun kursantlarının səlis danışığı, davranışı, aydın nitqləri, düzgün tələffüzləri onların gələcəkdə ordu üçün təcrübəli zabit, ölkə üçün gərəkli vətəndaş olacaqlarından xəbər verirdi. Bütün bunları gördükcə ürəyimiz açılır, üzümüz gülürdü.

Hərbi liseyin rəisi rəsm əsərlərinə baxdı, həm də onları öz təxəyyüllərinin gücü ilə yaratmış kursantlarla söhbət etdi, yaradıcılıqlarına qiymət verdi. Onlara lazımi məsləhət və tövsiyələrini verdi, yaradıcılıq uğurları arzuladı.

Rəsm əsərlərinə baxış başa çatandan sonra kursantların mükafatlandırılması mərasimi keçirildi. Sərgidə əsərləri nümayiş olunan kursantlar həm qiymətli hədiyyə, həm də fəxri fərmanlarla mükafatlandırıldı. Onlara mükafatları Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov və zabitlərdən Fuad Şərifzadə, Kamran Nəsibov, Qorxmaz Əbilov və başqaları təqdim etdilər.





Sərgidə əsərləri nümayiş olunan kursantlardan Xəzər Nəsibli, Məhəmməd Abbasov, Kamran Quliyev, Əziz Qurbanov, Əli Ələkbərov, Elmar Haqverdiyev və başqaları ilə yaxından tanış oldum. Onlar əsərlərinə belə yüksək dəyər verilməyinə görə məmnun qaldıqlarını bildirdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

Azərbaycan ordusu.-2016.-3 dekbar.-S.8.